# 2023 – HEYDƏR ƏLİYEV İLİ



# Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi

**Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin irsinin tədqiqi həmişəyaşarlıq baxımından daim aktuallığını saxlayacaqdır. Bu zəngin mənəvi xəzinə müasir dövlətçiliyimizi qidalandıran "şah damar"dır, demokratik cəmiyyətin ruhudur. Ümummilli liderin fəaliyyəti çox geniş və rəngarəng olduğundan onun ideya-siyasi irsi də dövlətçiliyin əksər sferalarını əhatə edir.**

Keçən əsrin 90-cı illərinin əvvəlində Azərbaycan cəmiyyəti və dövləti üçün çox çətin bir dönəmdə xalq öz xilaskarına üz tutaraq dünya şöhrətli siyasətçi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevi taleyin ümidində qalmış müstəqil dövlətin rəhbərliyinə gətirdi.

Burada iki önəmli məqamı vurğulamaq lazımdır. Birincisi, Heydər Əliyev 1993-cü ilin iyununda faktiki olaraq hər tərəfdən təzyiqlərə və erməni təcavüzünə məruz qalmış bir ölkəyə rəhbərlik etməli idi. İkincisi, rəhbərliyin uğurlu olması üçün ulu öndər nəzəri tezislərini birbaşa praktiki fəaliyyətdə təcrübədən keçirməli, uğurlu nəticə əldə etməli idi. Yəni başqa siyasi liderlərdən fərqli olaraq, siyasi-nəzəri bilik və təcrübəni rahat və əlverişli bir vaxtda gerçəkləşdirmək imkanı yox idi. Bu anlamda, Heydər Əliyev yeni mürəkkəb şəraitdə liderliyini "eksklüziv", hadisələrin kükrədiyi bir şəraitdə , vətəndaş qarşıdurmasının son həddində həyata keçirməli idi.

Bununla yanaşı, ulu öndər dövlət başçısı olmaqla liderliyin xaqın gözləntiləri ilə vəhdətinə nail olmalı idi. Ulu öndər, ilk olaraq, dövlətə rəhbərliklə xalqın lideri olmağın müstəqillik şəraitində əsas parametrlərini, uğur gətirəcək siyasi mexanizmlərini müəyyən etməli və həyata keçirməli idi. Əlbəttə, bunun üçün, qarşıda, bütövlükdə, düzgün, zamanın tələblərinə cavab verən, Azərbaycanı böhran vəziyyətindən çıxaracaq dövlətçilik fəlsəfəsi hazırlamaq gərək idi. Heydər Əliyev dühası bu zərurəti parlaq surətdə gerçəkləşdirdi.

Qısa müddətdə uğurlu dövlətçilik fəlsəfəsi əsasında hazırlanmış konkret müstəqil dövlət quruculuğu strategiyası ölkəni 2 çətin vəziyyətdən xilas etdi. Birincisi, cəmiyyətdə birlik yarandı. İkincisi, Azərbaycan dövlət olaraq sabitliyə nail oldu və bütün sosial-iqtisadi, mədəni, mənəvi-ideoloji istiqamətlərdə islahatlara başladı.

Artıq 1993-cü il oktyabrın 3-də keçirilən Prezident seçkisində xalqın böyük əksəriyyəti 3 ay əvvəl ölkə parlamentinin rəhbərliyinə dəvət edilərək siyasi-hərbi böhranı sovuşduran Heydər Əliyevə səs verməklə ona inandığını və güvəndiyini nümayiş etdirdi. Bu hadisənin fonunda siyasi analitiklər Əbülfəz Elçibəyə etimadın sürətlə itməsi fövqündə Heydər Əliyevə olan ümid və inamın sürətlə artmasını ulu öndərin ümummilli lider, dövlət başçısı kimi xarizması ilə əlaqələndirirlər.

Təcrübə göstərdi ki, Azərbaycan xalqı yanılmamışdır və ölkədə dövlət quruculuğu kursunu güclü və böyük siyasi liderə etibar edib. Doğrudan da, Heydər Əliyev qısa müddətdə – 1994 – 1995-ci illərdə dövlət çevrilişinə cəhdlərin qarşısını qətiyyətlə aldı. Paralel olaraq, Heydər Əliyev dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalamağa nail oldu. Bununla Azərbaycanda yeni neft strategiyasına start verildi. Heydər Əliyev, bunlarla yanaşı, sosial-iqtisadi, mədəni, ideoloji və mənəvi-əxlaqi sferalarda ciddi yenilikləri həyata keçirməyə başladı. Artıq 1995-ci ildə Azərbaycanda sabitlik təmin edildi.

Xilaskarlığın başlıca əlamətləri cəmiyyətdə qarşıdurmalara son verməklə erməni təcavüzünü dayandırmaq və konkret strategiya əsasında cəmiyyətdə sabitliyi təmin etməkdir. Dövlət quruculuğunu hüquqi əsasa gətirmək aspekti isə Azərbaycan Respublikasının Yeni Konstitusiyasını (1995-ci ildə) yaratmaq, Prezident üsul-idarəsini hüquqi təsbit və hakimiyyətin qolları arasında müasir demokratik qaydalara uyğun münasibətlər müəyyən etməklə bağlı idi. Bunları ümumiləşdirsək, belə qənaətə gələrik ki, Heydər Əliyev müstəqil dövlət quruculuğunun ilk mərhələsində siyasi lider kimi xilaskarlıqla sabitliyi qovuşdura bilmişdi.

Dövlət quruculuğunun sonrakı mərhələsi daha məsuliyyətli və strateji əhəmiyyəti olan addımlarla zəngin olmuşdur. Ulu öndər həmin dönəmdə (1996–2003-cü illər) müstəqil dövlətin siyasi institutlaşmasını, idarəetmənin təkmilləşməsini, beynəlxalq enerji layihələrinin reallaşmasını, cəmiyyətin daha sıx birləşməsini, iqtisadiyyatın yeni infrasturkturunun yaradılmasını və ordu quruculuğunu təmin etmişdir.

Bizim üçün bu məqamlarla yanaşı, Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinin çox əhəmiyyətli bir cəhəti də siyasi varislik əsasında yeni liderin yetişməsidir. Dünya tarixində nadir hallarda siyasi liderlər özlərindən sonra tam uğurlu yeni lider yetişdirə bilirlər. Postsovet məkanında isə Heydər Əliyevdən başqa bu vəzifənin öhdəsindən gələ bilən ikinci dövlət başçısı yoxdur. Azərbaycan liderinin bu nailiyyətinin iki səbəbini vurğulaya bilərik.

Əvvəla, Heydər Əliyevin şəxsiyyət və siyasi xadim kimi yüksək keyfiyyətlərə, dərin zəkaya sahib olması həlledici rol oynamışdır. Hər şeyi dəqiq ölçüb-biçən, düzgün strategiya müəyyənləşdirən ulu öndər dövlətin və xalqın gələcəyini yüksək səviyyəli yeni liderə etibar etmişdir. İkincisi, ulu öndər siyasi varislik prinsipinə tam əməl edə biləcək yeni lideri uğurla seçmişdir. Yeni liderin İlham Əliyev olacağına ulu öndər tam əmin idi. Çünki uzun müddət Heydər Əliyev İlham Əliyevi siyasi lider kimi yetişdirmişdir.

Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına etdiyi müraciətdə "İlham Əliyevə etibar etdiyini, ona özü kimi inandığını və müstəqil dövlət quruculuğunda uğur qazanacağını" böyük bir səmimiyyətlə Azərbaycan xalqına çatdırmışdı. İlham Əliyevin dövlət başçısı-lider kimi fəaliyyəti ulu öndərin tam haqlı olduğunu sübut etməkdədir.

Bununla da 2003-cü ildən başlayaraq Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinə əsaslanan müstəqil, güclü və demokratik cəmiyyət yaradılması kursunun yeni mərhələsinə start verilmişdir. Ulu öndərin dövlət quruculuğu fəlsəfəsi XXI əsrin gətirdiyi yeni reallıqlar şəraitində öz səmərəliliyini göstərməli idi. Prezident İlham Əliyev faktiki olaraq bir neçə istiqamətdə ulu öndərin dövlət quruculuğu kursunu inkişaf etdirməli, onun yeni şərtlər altında uğurlu olmasını təmin etməli oldu. Təcrübə göstərdi ki, İlham Əliyev bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəlmişdir. Azərbaycan Prezidenti İham Əliyev, hər şeydən öncə, ulu öndərin dövlət quruculuğu konsepsiyasından qaynaqlanan siyasi varislik prinsipinə tam əməl etmişdir.

Bu bağlılıqda ölkənin daxili və xarici siyasətinin prioritetlərini İlham Əliyev XXI əsrin tələblərinə daha da uyğunlaşdırmışdır. O, daxili siysətdə azərbaycançılıq və multikulturalizmin sintezi əsasında toplumun birliyini yeni səviyyəyə yüksəltmişdir. Bu məqam İlham Əliyevin Azərbaycan dövlətçiliyinə verdiyi yüksək töhfələrdən birini təşkil edir. Cəmiyyətdə lider–xalq, hakimiyyət–toplum birliyini təmin etməklə yeni dövlət başçısı bütün sferalarda uğurlu islahatlar aparmaq, demokratik təsisatları inkişaf etdirmək üçün geniş meydan açdı.

Məhz buna görədir ki, İlham Əliyev tarixi baxımdan qısa müddətdə cəmiyyətin bütün əhəmiyyətli sahələri üzrə geniş islahatlar proqramları həyata keçirə bildi. Bu da dövlət quruculuğu kursunun mühüm faktorlarından biridir. Nəticədə, Azərbaycanda insanların rifahı daha da yaxşılaşdı və adambaşına gəlirlər çoxaldı. Sosial təminat sahəsində ciddi irəliləyişlər oldu. İqtisadi, mədəni, təhsil sahəsində uğurlu proqramlar həyata keçirildi.

Ordu quruculuğuna İlham Əliyev xüsusi diqqət yetirdi. Azərbaycan Ordusu Cənubi Qafqazın ən böyük hərbi gücü səviyyəsinə yüksəldi. Ordu və müdafiəyə ayırılan vəsaitlərin daim artırılmasında başlıca məqsəd ulu öndərin vəsiyyətinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə nail olmaq idi. Prezident İlham Əliyev daxili siyasətdəki uğurları xarici siyasətdə də inkişaf etdirməyə nail oldu. Ölkəmizin ərazi bütövlüyünün bərpası xarici siyasətin prioriteti kimi çoxlu sayda faktoru nəzərə almağı tələb edirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin özünün də dəfələrlə vurğuladığı kimi, bütün bunlar qlobal güclərin regiondakı maraqlarının Azərbaycanın milli dövlət maraqlarına xidmət müstəvisində balanslaşdırılması kimi mürəkkəb siyasi kurs sayəsində mümkün oldu. Həmin kurs ulu öndər Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsinin yeni reallıqlar şəraitində inkişaf etdirilməsinin olduqca əhəmiyyətli məqamlarından biridir.

Dövlət başçısı İlham Əliyevin apardığı siyasət öz bəhrəsini bütün sahələrdə verməkdir və o proses indi də davam edir. Ən böyük nailiyyətlərdən biri isə 2020-ci il 44 günlük Zəfər Savaşı oldu. Zəfər Savaşı dövlət quruculuğu konsepsiyasına zəfər fəlsəfəsini gətirdi. Zəfər fəlsəfəsinin mühüm faktorlarından biri "Şuşa Bəyannaməsi" oldu. Bu əsasda, bütövlükdə, Azərbaycanın postmünaqişə və postmüharibə mərhələsində yeritdiyi daxili və xarici siyasət dövlət quruculuğu prosesində yeni mərhələni başlatdı.

Hazırda Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi ciddi təsir imkanlarına malikdir. Türkiyə–Azərbaycan müttəfiqliyi regional geosiyasi dinamikanı müəyyən edir və sabitləşdirici rol oynayır. Prezident İlham Əliyev müstəqil dövlət quruculuğu strategiyasında mərkəzi yer tutan "Bir millət, iki dövlət" formulunun reallaşması üçün olduqca səmərəli addımlar atmışdır.

Beləliklə, Heydər Əliyevin müstəqil güclü dövlət quruculuğu fəlsəfəsi XXI əsrdə İlham Əliyev tərəfindən böyük uğurla inkişaf etdirilir. Ulu öndərin arzu və vəsiyyətlərinə uyğun olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyaya Günəş kimi doğur!

***Mirkazım SEYİDOV,***
***Azərbaycan və Rusiya Yazıçılar birliklərinin üzvü, diaspor fəalı***